AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

[redacted]

[redacted] [redacted]

[redacted]

*"07" fevral 2019 - cu il*

## Tövsiyə məktubu

[redacted] 2016-cı ildən [redacted] şagirdidir və elə ilk gündən öz akademik bilik və bacarıqları ilə hər kəsdən fərqlənir. Mən şagirdim [redacted] müraciətini bu məktubla dəstəkləmək istərdim. O, hər zaman məktəb və dövlət imtahanlarında yüksək nəticələr toplayaraq öz üzərində daim çalışdığını nümayiş etdirir. Həmçinin o, məktəbin təşkil etdiyi bütün tədbirlərdə aktiv iştirak edir. Bununla yanaşı, respublikamızda və xarici dövlətlərdə keçirilən müxtəlif olimpiadalarda, müsabiqələrdə iştirak edərək bürünc, gümüş və qızıl medallarla təltif olunmaqla liseyimizin adını ucaldır. [redacted] həmçinin aşağı sinifləri bütün zamanını həsr etdiyi və maraqla oxuduğu biologiya elminə cəlb etmək üçün müxtəlif açıq dərslər təşkil etmişdir. [redacted] tez-tez müəllimlərlə fikir mübadiləsi apararaq, onların müxtəlif sahələr üzrə fikir və biliklərinə yiyələnməyə çalışır. Bir sözlə, o, hər zaman yeniliklərə açıq, öyrənməyə can atan, məqsədyönlü və çalışqan şagirdlərimizdən biridir.

Müəllimlərinin də qeyd etdiyi kimi [redacted] ümumiyyətlə dərs prosesinə böyük məmnunluqla qatılır, müvəffəqiyyətinə və nadir hallarda olsa da, hər hansı bir işdən uğursuzluğuna məntiqli təhlillə yanaşır. Ona həvalə olunan tapşırıqları qısa zamanda, bəzən vaxtından öncə böyük həvəslə və yüksək səviyyədə yerinə yetirir. Özünə arxayındır. Müəllim və şagirdlərin dərin rəğbətini qazanmışdır. Liseyin ictimai-mədəni həyatında və ədəbi-bədii tədbirlərdə fəal iştirakı ilə fərqlənir. İctimai aktivliyi yüksəkdir. Analitik düşünmə və təhlil aparma, düzgün qərar vermə, insanlarla yaxşı əlaqə qurma, dəqiqlik, çalışqanlıq və sərbəst fikir yürütmək qabiliyyətinə malikdir. Tanış olmayan mühitdə çıxış etməkdən çəkinmir. Məsuliyyətli və əməksevərdir. Diqqətcil, ciddi və sakit təbiətlidir. O, şəxsi keyfiyyətlərinə görə səmimi, özünə qarşı tələbkar və liderlik həvəsi olan bir şagirddir. İntizamlı və məsuliyyətlidir.

İnanıram ki, məktəbdə əldə etdiyi biliklər və bundan irəli gələn sorğulayıcı düşünmə bacarığı onun gələcək ali təhsilində qazanacağı uğurlarının əsas təməlini təşkil edəcəkdir.

Mən əminəm ki, [redacted] elmə olan marağı ona universitet təhsilində də kömək edəcək və Vaqifi ən uca zirvələrə qaldıracaq.

Əgər onunla bağlı suallarınız yaranarsa mənimlə telefon və ya e-poçt vasitəsilə əlaqə saxlaya bilərsiniz. Mən [redacted] ilə bağlı sualları məmnuniyyətlə cavablandırmağa hazıram.

***Hörmətlə,***

[redacted]